

*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**


# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 6 aprel 2016-cı il № 25 (2040) Qiyməti 25 qəpik


# Azərbaycan Prezidentinin yanında Təhlükəsizlik Şurasının iclası

***Aprelin 2-də Azərbaycan Respublikası Prezidentinin yanında Təhlükəsizlik Şurasının iclası keçirilib.***

***Dövlətimizin başçısı iclasda çıxış edib.***



- Bu gün Ermənistan Azərbaycana qarşı növbəti silahlı təxribat törətmişdir. Təmas xəttində yerləşən mövqelərimizə hücum çəkmişdir. Təmas xəttinə yaxın yerlərdə yerləşən yaşayış məntəqələrini atəşə tutmuşdur.

Bu silahlı təxribat nəticəsində itkilərimiz olmuşdur. Hərbçilərimiz və mülki şəxslər həlak olmuşlar. Xahiş edirəm ki, həlak olanların xatirəsini bir dəqiqəlik sükutla yad edək.

Allah rəhmət eləsin. Allah onların qohumlarına, yaxınlarına səbr versin. Yaralananlara Allahdan şəfa diləyirəm.

Göstəriş verirəm ki, Nazirlər Kabineti həlak olanların ailələrinə maddi yardım göstərmək üçün təkliflər irəli sürsün və Müdafiə Nazirliyi döyüş əməliyyatlarında fərqlənmiş, Vətən uğrunda qəhrəmancasına döyüşmüş insanları təltif etmək üçün mənə təkliflər təqdim etsin.

Bu, Ermənistanın ölkəmizə qarşı növbəti silahlı təxribatıdır. Birinci dəfə deyil ki, Ermənistan bu cür təxribatlara əl atır. Bir neçə gün bundan əvvəl Azərbaycan-Ermənistan sərhədində, Qazax istiqamətində də oxşar təxribat törədilmişdir. Bizim mövqelərimizə Ermənistanın təxribatçı qrupları hücum çəkmişlər. Bu hücum nəticəsində iki hərbçimiz həlak olmuşdur. Düşmənə layiqli cavab verilmişdir. Düşmən yerinə oturduldu.

Yeni, bunu demək istəyirəm ki, bugünkü təxribat da Ermənistanın Azərbaycana qarşı məkrli siyasətinin təzahürüdür. Bu gün erməni təxribatı Azərbaycan Ordusu tərəfindən layiqincə cavablandırıldı. Düşmənə çox böyük zərbələr endirildi. Düşmən böyük itkilər verdi. Müdafiə naziri bu gün bu məsələ ilə bağlı daha ətraflı məlumat verəcək. Deyə bilərəm ki, düşmənə sarsıdıcı zərbə vuruldu.

Bununla bərabər, bizim qəhrəman döyüşçülərimiz nəinki təxribatın qarşısını ala bildilər. Eyni zamanda, daha əlverişli hərbi mövqelərə malik oldular. Bu gün təmas xəttində Azərbaycanın üstünlüyü daha da möhkəmləndi. Aparılan hərbi əməliyyat nəticəsində, - onu da qeyd etmək istəyirəm ki, bu əməliyyat təxribata cavab olaraq aparılmışdır, - biz böyük hərbi qələbəni qazandıq. Bu münasibətlə Ordumuzu, bütün Azərbaycan xalqını təbrik etmək istəyirəm.

Əminəm ki, bundan sonra da düşmənin bütün təxribatları cavabsız qalmayacaq. Düşmənə bundan sonra da layiqli cavab veriləcək. Azərbaycan Ordusu buna qadirdir. Azərbaycan övladları öz doğma torpağını müdafiə edirlər, Vətən uğrunda vuruşurlar, şəhid olurlar. Bütün şəhidlərimizin xatirəsi bizim ürəyimizdə yaşayır və əbədi yaşayacaq.

Ermənistanın bu hərəkətlərinin də səbəbi mənim üçün sirr deyil. Mən dəfələrlə həm Azərbaycan ictimaiyyətinə, həm bu məsələ ilə bağlı olan vasitəçilərə, vasitəçilik edən ölkələrin başçılarına öz fikirlərimi bildirmişdim. Ermənistan sülh istəmir. Ermənistan işğal edilmiş torpaqlardan çəkilmək istəmir və bütün səyləri ona yönəldib ki, status-kvonu maksimum saxlaya bilsin. Bu sözlərin kifayət qədər çox sübutları var. Danışıqlar prosesi iyirmi ildən artıqdır ki, aparılır. Bu iyirmi il ərzində həlledici məqamlarda Ermənistan həmişə təxribatlara əl atırdı. Təmas xəttində Ermənistan tərəfindən daim gərginlik yaradılır. Eyni zamanda, keçən əsrin sonlarında Ermənistan parlamentində terror aktının törədilməsi də məhz bu məqsədi güdürdü ki, münaqişə ilə bağlı mümkün olan razılaşmanı əngəlləsinlər və beləliklə, status-kvonu saxlaya bilsinlər.

Xatırlayırsınız, 2014-cü ildə Fransa Prezidenti cənab Olland Parisdə Ermənistan və Azərbaycan prezidentlərinin görüşünü təşkil etmişdi. Görüş çox konstruktiv şəraitdə keçmişdi və görüşün nəticəsi ümidlər verirdi. Orada biz, eyni zamanda, təmas xəttində təhlükəsizlik, etimad tədbirlərinin gücləndirilməsi haqqında danışırdıq. Ancaq o görüşdən iki həftə keçməmiş Ermənistan işğal edilmiş torpaqlarda - Ağdam rayonunun ərazisində özlərinin dediyi kimi, 47 min şəxsi heyətin iştirakı ilə hərbi təlimlər keçirməyə başlamışdı. Bu, sırf təxribat xarakterli bir addım idi. Bunun nə mənası var idi? Xüsusilə Parisdə keçirilmiş uğurlu sayılan görüşdən sonra.

Bir neçə gün Azərbaycan Ordusu özünü çox təmkinlə aparırdı. Mən də göstəriş vermişdim ki, biz təxribatlara uymayaq. Ancaq ondan sonra düşmən daha da azğınlaşmışdır, bizim mövqelərimizə hücum çəkmişdir, hərbi helikopterləri işə salmışdır. Azərbaycan Ordusu helikopterin birini məhv etmişdir. Bu, Ermənistana lazım idi. Onların təxribatı idi. Lazım idi desinlər ki, Azərbaycan atəşkəsi pozur. Azərbaycan burada özünü aqressiv aparır və sair.

Bugünkü təxribat da, bax, bu mənbədən gələn təxribatdır. Yenə də bizim mövqelərimizə hücum çəkirlər. Bizim əsgərlərimiz, zabitlərimiz həlak olur. Ondan sonra Azərbaycan Ordusu onların başını əzir və indi dünyaya hay-haray çəkirlər ki, Azərbaycan atəşkəsi pozur. Biz atəşkəsi pozmamışıq, biz, sadəcə olaraq təxribata layiqli cavab vermişik. Nə qədər ki, Ermənistan bu təxribatçı əməllərdən əl çəkməyəcək, Azərbaycan Ordusu onları bundan sonra da cəzalandıracaq.

Ermənistanın əsas məqsədi status-kvonun dəyişməz qalmasıdır. Əfsuslar olsun ki, Minsk Qrupuna həmsədrlik edən ölkələrin dövlət başçılarının çoxsaylı bəyanatları Ermənistan rəhbərliyinə heç bir təsir göstərmir. Bu bəyanatlar ondan ibarətdir ki, ABŞ, Rusiya və Fransa dövlətlərinin başçıları dəfələrlə bildirmişlər: status-kvo qəbuledilməzdir, dəyişməlidir və məsələ tezliklə öz həllini tapmalıdır.

Status-kvonun dəyişdirilməsi o deməkdir ki, işğalçılar işğal edilmiş torpaqlardan çıxmalıdır. Ermənistan rəhbərliyi bunu istəmir. Əsas məsələ bundan ibarətdir. Onlar istəyirlər ki, bu, sonu olmayan prosesə çevrilsin. İstəyirlər ki, danışıqlar bundan sonra da iyirmi il davam etsin. Onlar özlərini danışıqlar masası arxasında qeyri-səmimi aparırlar. Bu yaxınlarda Rusiya Prezidenti və Rusiyanın xarici işlər naziri digər həmsədrlərlə birlikdə müəyyən təkliflər irəli sürmüşlər. Biz bunu alqışlayırıq. Həm görüş əsnasında və rəsmi bəyanatlarda Azərbaycanın ərazi bütövlüyü ilə bağlı öz fikirlərini bildirmişlər.

Azərbaycanın ərazi bütövlüyünə böyük dəstək göstərilmişdir. Görüşlər onu göstərir ki, Amerika tərəfi münaqişənin tezliklə həll olunması üçün çox maraqlıdır. Bilirəm ki, Ermənistan rəhbərinə də müəyyən siqnallar, mesajlar verilmişdir. Yəni, son vaxtlar həmsədrlər, onların dövlətlərinin başçıları çalışırlar ki, məsələ həll olunsun. Nüvə Sammiti hələ başa çatmamış Ermənistan bu çirkin təxribatı törədir, sülh prosesinə çox böyük zərbə vurur. Bundan istifadə etməyə çalışır ki, Azərbaycanı günahlandırsın.

Onların sərəncamında olan satqın kütləvi informasiya vasitələri, satqın siyasətçilər, korrupsiyaya uğramış politoloqlar, şərhçilər indi sıraya düzülüblər ki, Azərbaycanı ittiham etsinlər. Əgər indi bəzi ölkələrin mətbuatına nəzər salsanız, görərsiniz ki, birtərəfli məlumat gedir. Azərbaycan ittiham olunur. Döyüşlərlə bağlı təhrif edilmiş məlumatlar verilir.

Ermənistan ordusu bu gün çox böyük zərbə almışdır. Atəşkəs rejimindən sonra ilk dəfədir ki, onlara belə sarsıdıcı zərbə vuruldu. Bunun günahkarı onlar özləridir. Ancaq çalışırlar ki, həm ictimai rəyi çaşdırsınlar, itkiləri gizlətsinlər. Eşitdiyimə görə, Ermənistan rəhbəri ictimaiyyətə itkilərlə bağlı qeyri-dəqiq məlumat ötürməyə çalışır. Bu, açıq-aydın onu göstərir ki, bunlar sadəcə olaraq öz xalqını aldatmaq istəyirlər. Bu gün Ermənistan tərəfi bütün imkanlardan - diaspor təşkilatlarından, müxtəlif ölkələrdə onların agentlərindən, korrupsiyaya uğramış siyasətçilərdən istifadə edir ki, bütün günahı Azərbaycanın boynuna qoysun.

**(Ardı 2-ci səhifədə)**

# Azərbaycan Prezidentinin yanında Təhlükəsizlik Şurasının iclası

(Əvvəli 1-ci səhifədə)

Bizim heç bir günahımız yoxdur. Biz sadəcə olaraq bu təxribata cavab vermişik. Düz də etmişik. Bizə qarşı yenə təxribat törədilərsə, onlar yenə də öz cəzalarını alacaqlar. Bu bir. İkincisi, biz öz torpağımızda vuruşuruq. Biz Ermənistan torpağını işğal etməmişik. Biz öz torpağımızda vuruşuruq. Əgər erməni əsgəri ölmək istəmirsə, Azərbaycan torpağından rədd olsun. Mən bunu dəfələrlə demişəm, bir daha demək istəyirəm.

Ermənistan bütün beynəlxalq normaları pozubdur. BMT Təhlükəsizlik Şurasının qətnamələrinə məhəl qoymur, digər təşkilatların qərar və qətnamələrini saymır. İşğal edilmiş torpaqlarda bütün binaları, tarixi, dini abidələrimizi vəhşi kimi dağıdıb. ATƏT-in faktaraşdırıcı missiyası işğal edilmiş torpaqlarda iki dəfə olmuşdur. Onların məlumatları bizdə var. Bizim məscidlərimiz, qəbirlərimiz, tarixi abidələrimiz, binalarımız, muzeylərimiz dağıdılıb. Bütün qiymətli əşyalar talan edilib. Bu, misli görünməmiş vəhşilikdir. Bu gün İrəvanda ən yüksək kabinetlərdə oturan cəlladlar vəhşicəsinə Xocalı soyqırımını törətmişlər. Onlar bunun cavabını verməlidirlər, yoxsa yox?!

Biz səbr, dözümlülük, konstruktivlik göstəririk. Baxmayaraq ki, biz 20 ildən artıqdır atəşkəs rejimində yaşayırıq. Yenə də çalışırıq ki, məsələ sülh yolu ilə öz həllini tapsın. Mən bunu dəfələrlə bəyan etmişəm, bu gün də deyirəm ki, biz məsələni sülh yolu ilə həll etmək istəyirik. Biz müharibə istəmirik. Biz istəmirik ki, qan tökülsün. İstəmirik ki, gənc insanlar həlak olsunlar. Biz istəmirik ki, anaların göz yaşları tökülsün. Azərbaycan, Ermənistan analarının göz yaşları tökülməsin. Ancaq biz öz haqqımızı tələb edirik.

Bir daha demək istəyirəm ki, biz məsələni sülh yolu ilə həll etmək istəyirik. Ancaq həll etmək istəyirik. Biz bundan sonra da sonu bəlli olmayan prosesdə, sadəcə olaraq, görüntü naminə iştirak etmək fikrində deyilik. Bunu vasitəçilərə də demişik, bunu Ermənistan tərəfi də bilir. Ona görə də məsələnin sülh yolu ilə həlli üçün Ermənistan işğal edilmiş torpaqlardan çıxmalıdır. Bunun başqa yolu yoxdur. Əgər Ermənistan rəhbərliyi öz xalqının gələcəyini düşünürsə, bu addımı atmalıdır. Ermənistanda hökm sürən kriminal diktatura rejimi öz ölkəsini uçuruma aparır. Ermənistanda demoqrafik vəziyyət kritik həddə çatıbdır. İqtisadiyyat dağılıb, bütün azadlıqlar tapdalanır, diktatura hökm sürür. Kriminal rejim ilk növbədə erməni xalqının qənimidir. Ona görə onların gələcəyi yalnız qonşu ölkələrlə normal münasibətlərdən keçir. Ancaq hansı normal münasibətlərdən söhbət gedə bilər ki, XXI əsrdə qonşu ölkənin torpaqlarının 20 faizini işğal edəsən, soyqırımı törədəsən, sonra isə soyqırımına məruz qalan xalqı günahlandırasan ki, atəşkəsi pozur.



Mən bir daha demək istəyirəm ki, Azərbaycanın prinsipial mövqeyi var. Bizim ərazi bütövlüyümüz danışıqlar mövzusu deyil, olmayıb və heç vaxt olmayacaqdır. Bu münaqişə ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Bunun başqa yolu yoxdur. O ki qaldı Dağlıq Qarabağda yaşayan erməni əhalisinə, onlar gələcəkdə Azərbaycan vətəndaşları kimi Azərbaycanda rahat yaşaya bilərlər. Azərbaycan çoxmillətli, çoxkonfessiyalı ölkədir. Azərbaycan bir çox ölkələr üçün nümunədir, multikulturalizm məkanıdır, tolerantlıq diyarıdır.

Bütün münaqişələr öz həllini bir prinsip əsasında tapmalıdır. Xalqların öz müqəddəratını təyinetmə prinsipi ölkələrin ərazi bütövlüyünü pozmamalıdır və Helsinki Yekun Aktı məhz bunu diktə edir. Ona görə bir daha demək istəyirəm ki, biz münaqişənin həlli ilə bağlı öz prinsipial mövqeyimizdən dönməyəcəyik. Bununla bərabər, biz danışıqlara sadiqik, bundan sonra da çalışacağıq ki, bu münaqişə sülh yolu ilə öz həllini tapsın. Bununla bərabər, biz Ordumuzun gücünü daha da artıracağıq. Ona görə artıracağıq ki, bax, bu təxribatlar, erməni təxribatları cavabsız qalmasın. Hesab edirəm ki, bu gün - aprelin 2-si onlar üçün yaxşı dərs olacaqdır.



* * *

Sonra müdafiə naziri Zakir Həsənov məruzə etdi.

Bildirildi ki, aprelin 1-dən 2-nə keçən gecə erməni silahlı qüvvələri müxtəlif istiqamətlərdən Azərbaycan Silahlı Qüvvələrinin mövqelərinə hücuma keçmiş və yaşayış məntəqələrimizi atəşə tutmuşlar. Bu təxribat xarakterli hücumların nəticəsində hərbi qulluqçularımız qəhrəmancasına həlak olmuşlar. Cavab olaraq Azərbaycan Silahlı Qüvvələri bütün istiqamətlərdən əks-hücuma keçərək düşmənin mövqelərinə sarsıdıcı zərbələr vurmuşlar.

Nazir Zakir HƏSƏNOV dedi:

- Möhtərəm Prezident, cənab Ali Baş Komandan, məruzə edirəm ki, son zamanlar erməni silahlı qüvvələri cəbhəboyu yerləşən ərazilərdə, kəndlərdə təxribatları artırıbdır, əhaliyə qarşı iriçaplı silahlardan və artilleriya qurğularından istifadə edir. Son hadisələr göstərir ki, əhali arasında itkilər çoxalıb. Bu təxribatların qarşısını almaq üçün əməliyyat şəraitini qiymətləndirərək qərar qəbul olunmuşdur ki, erməni silahlı qüvvələrinin atəş nöqtələrinə və artilleriya qurğularına zərbələr endirilsin və onların hərbi birləşmələri bizim kəndlərdən daha uzaq yerə çəkilməyə məcbur edilsin. Bununla yanaşı, ehtimal olunan istiqamətdə erməni silahlı qüvvələrinin ehtiyatlarının hərəkətini də nəzərə alaraq, aprelin 1-dən 2-nə keçən gecə Azərbaycan Silahlı Qüvvələrinin kəşfiyyat qrupları 3 istiqamətdə planlı şəkildə tədbirlər həyata keçirmişdir. Əməliyyat şəraitini nəzərə alaraq, Talış və Seysulan kəndləri, bir də Horadiz istiqamətində olan təpələr aparılan döyüş əməliyyatları ilə ələ keçirilmişdir. Bu əməliyyatın əsas məqsədi təxribatların qarşısının alınması və bizim yaşayış məntəqələrinə atəş nöqtələrinin təsirinin azaldılması idi.

Məruzə edirəm ki, əməliyyat vaxtı erməni silahlı qüvvələri Madagiz, Ağdərə və digər yaşayış məntəqələrindən ehtiyatları hərəkətə gətirərək döyüş bölgəsinə yerləşdirmək məqsədilə əməliyyat keçirmişlər. Bunun da qarşısının alınması məqsədilə Silahlı Qüvvələrimiz həmin istiqamətlərdə döyüş tədbirləri həyata keçirmiş və zərbələr endirmişlər. Erməni silahlı qüvvələri bu zərbələr nəticəsində həm canlı qüvvə, həm də texnika sarıdan çox böyük itkilər vermişdir. Məruzə edirəm ki, Silahlı Qüvvələrimiz əməliyyat şəraitini nəzərə alaraq həmin istiqamətlərdə və yüksəkliklərdə öz mövqelərini möhkəmləndirmişdir. Gün ərzində erməni silahlı qüvvələrinin təxribatlarının qarşısı uğurla alınmışdır. Erməni silahlı qüvvələri bu döyüşlərdə böyük itkilərə məruz qalmışdır. Bizdə olan məlumata görə, 100-ə yaxın düşmən məhv edilmiş və bir neçə yüz düşmən yaralanmışdır. Çoxlu sayda zirehli texnika, artilleriya qurğuları sıradan çıxarılmışdır. Əməliyyat şəraitini və erməni silahlı qüvvələrinin əsas hərbi hissələrinin Madagiz yaşayış məntəqəsində yerləşməsini nəzərə alaraq, oraya da zərbələr endirilmişdir. Onu da məruzə edirəm ki, bir neçə hərbi top hissəsi Madagiz yaşayış məntəqəsindən bizim mövqelərə, bir də yaşayış məntəqələrinə birbaşa zərbələr endirirdilər.

Məruzə edirəm ki, bütün əməliyyat şəraiti nəzərə alınmaqla, Silahlı Qüvvələrimiz tədbirləri davam etdirir, cəbhəboyu əməliyyat şəraitini tam nəzarət altında saxlayır və gözlənilən bütün təxribatların qarşısını almağa hazırdır.

* * *

Prezident İlham ƏLİYEV:

- Onu da bildirmək istəyirəm ki, bu gün Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, Türkiyənin Baş naziri Əhməd Davudoğlu mənə telefonla zəng etmiş, həlak olanlarla bağlı başsağlığı vermiş, eyni zamanda öz dəstəyini ifadə etmişlər. Bununla bərabər, Belarus Prezidenti Aleksandr Lukaşenko da mənə zəng etmiş, vəziyyətlə maraqlanmış və öz narahatlığını ifadə etmişdir.

İndi biz məsələləri daha geniş şəkildə müzakirə edəcəyik, gələcək planlarımız haqqında danışacağıq. Bir daha demək istəyirəm ki, bu gün - aprelin 2-si Azərbaycan Ordusunun tarixində parlaq qələbə günü kimi qalacaqdır. Azərbaycan Ordusunu, Silahlı Qüvvələrimizin bütün şəxsi heyətini bu böyük qələbə münasibətilə təbrik edirəm.

**AZƏRTAC**

# Prezident İlham Əliyev Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Klinik Hospitalında müalicə olunan yaralı hərbçilərə baş çəkib





***Aprelin 5-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Klinik Hospitalında müalicə olunan yaralı hərbçilərə baş çəkib.***

Müdafiə naziri general-polkovnik Zakir Həsənov Prezident, Ali Baş Komandan İlham Əliyevə raport verdi.

Zakir Həsənov bildirdi ki, cəbhənin təmas xəttində ermənilərin təxribatının qarşısını alarkən qəhrəmanlıqla döyüşən və yaralanan hərbçilərin bir hissəsi müalicə olunmaq üçün bu hərbi hospitala gətirilib. Hazırda onların müalicəsi istiqamətində zəruri tədbirlər görülür. Hospitalın tibb heyəti onların tezliklə sağlamlıqlarına qovuşmaları üçün gecə-gündüz əllərindən gələni edirlər.

Dövlətimizin başçısı cəbhənin təmas xəttində gedən döyüşlərdə yaralanan hərbçilərlə görüşdü.

Prezident İlham Əliyev: Salam uşaqlar, necəsiniz? Vəziyyət necədir?

Əsgərlər: Yaxşıdır, cənab Prezident.

Prezident İlham Əliyev: Sən necəsən?

Əsgər: Yaxşıyam, sağ olun.

Prezident İlham Əliyev: Həkimlər sizə necə baxırlar?

Əsgərlər: Yaxşı baxırlar.

Prezident İlham Əliyev: Nə vaxt yaralanmısan?

Əsgər: Aprelin 1-də.

Prezident İlham Əliyev: Ayaqdan yaralanmısan?

Əsgər: Bəli, iki ayağımdan da.

Prezident İlham Əliyev: Böyük qəhrəmanlıq göstərmisən. Təşəkkürümü bildirirəm.

Əsgər: Çox sağ olun, cənab Prezident. Bu dəqiqədə də vuruşmağa hazıram.

Prezident İlham Əliyev: Amma gərək sağalasan. Sağalın, sağlamlığınızı bərpa edin. Həkimlər sizə yaxşı baxırlar. Burada bütün şərait yaradılıb. Siz Vətən uğrunda vuruşmusunuz, xəsarət almısınız, yaralanmısınız. Vətən bunu yüksək qiymətləndirir. Azərbaycan xalqı sizinlə fəxr edir. Ali Baş Komandan kimi sizə minnətdarlığımı bildirirəm. Sağ olun.

Əsgərlər: Sağ olun.

* * *

Növbəti palatada yaralı əsgərlərlə görüşən Prezident İlham Əliyev dedi:

- Sizi salamlayıram. Sizə minnətdarlığımı bildirmək istəyirəm. Vətən uğrunda, torpaq uğrunda qəhrəmancasına vuruşmusunuz. Vətəni, ərazi bütövlüyümüzü qorumusunuz. Azərbaycan xalqı sizinlə fəxr edir. Döyüşlərdə yaralanmısınız, ancaq qələbə qazanmısınız.

Əsgər: Cənab Prezident, arzumuz budur ki, torpaqlarımızı azad edək. Bu gün burada yaralı olsaq da, qəlbimiz cəbhə xəttindədir. Döyüşlərdə iştirak etmək, torpaqlarımızı azad etmək istəyirik.

Prezident İlham Əliyev: Siz torpaqların azad edilməsi üçün artıq nə lazımdırsa etmisiniz. Azərbaycan Ordusu düşmənə layiqli cavab verdi, düşmən təxribatının qarşısını aldı. Təmas xəttində yaranmış vəziyyət onu göstərir ki, doğrudan da, Azərbaycan Ordusu, Azərbaycan əsgəri, zabiti böyük işlərə qadirdir, qəhrəmandır. Ərazi bütövlüyümüzün bərpası hər bir Azərbaycan vətəndaşının müqəddəs borcudur. Sizin kimi övladlar Vətənin şöhrətini ucaldırlar. Sən harandan yaralanmısan?

Əsgər: Ayağımdan, bir də qəlpə yarası var.

Prezident İlham Əliyev: Əməliyyat olunmusan?

Əsgər: Bu gün olunmuşam.

Prezident İlham Əliyev: Bəs sən?

Əsgər: Məndə qəlpə yarasıdır.

Prezident İlham Əliyev: Sən harandan yaralanmısan?

Əsgər: Çiynimdən güllə yarası almışam.

Prezident İlham Əliyev: Özünü necə hiss edirsən?

Əsgər: Əla.

Prezident İlham Əliyev: Görürəm sənin vəziyyətin bir qədər ağırdır. Necəsən?

Əsgər: Yaxşı hiss edirəm özümü, cənab Prezident. Hər şey yaxşıdır.

Prezident İlham Əliyev: Böyük qəhrəmanlıq göstərmisiniz. Sizin apardığınız hərbi əməliyyatlar gələcəkdə hərbi kitablarda öz əksini tapacaq. Sən necəsən?

Əsgər: Yaxşıyam.

Prezident İlham Əliyev: Qolundan yaralanmısan?

Əsgər: Bəli.

Prezident İlham Əliyev: Tezliklə sağalın, uşaqlar. Allah şəfa versin. Tezliklə sağalın, normal həyata qayıdın. Sağ olun.

Əsgərlər: Sağ olun.

* * *

Digər palatada yaralı əsgərlərlə görüşən Prezident İlham Əliyev soruşdu: Necədir vəziyyət? Özünüzü necə hiss edirsiniz?

Əsgər: Əla hiss edirəm. İnşallah, ayağa qalxıb Vətənimizin torpaqlarını geri qaytarmaq üçün yenidən döyüşəcəyəm. Bizim qardaşlarımız orada yolumuzu, köməyimizi gözləyirlər.



Prezident İlham Əliyev: İnşallah. Sən nə lazımdırsa etmisən. Qəhrəmancasına vuruşmusan, yaralanmısan.

Əsgər: Etməyə də hazıram, sona kimi də edəcəyəm.

Prezident İlham Əliyev: Böyük qəhrəmanlıq göstərmisiniz. Biz sizinlə fəxr edirik ki, Azərbaycanın belə gözəl gənc nəsli var.

Əsgər: Bizim torpaqlarımızın bir qarışı da düşmən tapdağında qalmamalıdır. Öldü var, döndü yoxdur.

Prezident İlham Əliyev: Qalmayacaq. Əməliyyat olunacaq?

Hərbi həkim: Bəli, əməliyyat olunacaq. İlkin əməliyyat olunub. Yekun əməliyyat olunacaq.

Prezident İlham Əliyev: Tam bərpa olunacaq?

Hərbi həkim: Bəli, tam bərpa olunacaq. Sümük, əzələ defekti yoxdur.

Prezident İlham Əliyev: Səndə nə yarasıdır? Necədir vəziyyətin?

Əsgər: Qəlpə yarasıdır. Yaxşıdır.

Prezident İlham Əliyev: Allah şəfa versin. Tez sağalın və normal həyata qayıdın. Sizinlə fəxr edirik. Sağ olun.

* * *

Sonra dövlətimizin başçısı şəhid ailələrinin və yaralıların yaxınlarının bir qrupu ilə görüşdü.

Prezident İlham Əliyev dedi:

- Bildiyiniz kimi, aprelin 2-də erməni işğalçıları dövlətimizə qarşı növbəti silahlı təxribat törətmişlər. Hərbi mövqelərimizə hücum çəkmişlər. Mülki əhalini, kəndlərimizi atəşə tutmuşlar. Qəhrəman Azərbaycan Ordusu, qəhrəman əsgərlərimiz, zabitlərimiz düşmənin təxribatının qarşısını aldılar, düşmənə layiqli cavab verdilər və təmas xəttində öz üstünlüklərini daha da möhkəmləndirdilər. Birinci dəfə deyil ki, erməni işğalçıları bu təxribatlara əl atırlar. Mən dəfələrlə demişəm ki, onlar işğal edilmiş torpaqları daim öz nəzarətində saxlamaq istəyirlər, sülh istəmirlər. Danışıqlar prosesində özlərini qeyri-səmimi aparırlar. Beynəlxalq hüququn bütün normalarını, əxlaqi normaları pozublar. Mülki əhaliyə atəş açırlar. Bu hadisələrdən bir neçə gün əvvəl Azərbaycan-Ermənistan sərhədində - Qazax istiqamətində təxribat törətmişlər. Orada hərbçilərimiz həlak olmuşdur. Bu hadisələr zamanı bizim kəndlərimizi daim atəşə tuturlar. Mülki əhalidən həlak olanlar var. Üç yüzə yaxın evə ziyan vurulub. Yəni, budur onların hərəkətləri. Azərbaycan əsgəri, Azərbaycan zabiti heç vaxt mülki əhaliyə qarşı vuruşmamışdır, vuruşmur və vuruşmayacaqdır. Biz öz torpağımızda vuruşuruq, öz torpağımızı qoruyuruq. Bizim işimiz haqq işidir.

Azərbaycan Ordusu bu dəfə də düşmənə yerini göstərdi, onu yerinə oturtdu. Bu gün də biz tam üstünlüyü əldə etmişik. Buna baxmayaraq, biz bəyan etmişdik ki, birtərəfli qaydada atəşkəsi bərpa etməyə hazırıq, bir şərtlə, qarşı tərəf də atəşkəsə əməl etsin. Biz müharibə istəmirik. Biz istəyirik ki, məsələ sülh yolu ilə həll olunsun. Düzdür, bu, çətin prosesdir. Ancaq bilin ki, bütün əsas beynəlxalq təşkilatlar Azərbaycanın mövqeyini dəstəkləyir. BMT, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Şurası - bütün bunlar həqiqəti əks etdirən, bizim mövqeyimizi dəstəkləyən qərar və qətnamələr qəbul etmişlər. Düzdür, hələ ki, bu qərarlar nəticəyə gətirib çıxarmayıb. Ancaq bu, məsələnin həlli üçün hüquqi əsasdır. Digər tərəfdən, Azərbaycan siyasi, iqtisadi cəhətdən bölgədə Ermənistan ilə müqayisədə böyük dərəcədə irəliyə getmişdir.

Bir daha demək istəyirəm, baxmayaraq ki, danışıqlar nəticə vermir, biz yenə də bu danışıqlar prosesinə hazırıq. Bu təxribatı erməni tərəfi ona görə törədib ki, onlara beynəlxalq ictimaiyyət, bu məsələ ilə məşğul olan vasitəçilər tərəfindən təzyiqlər artır. Artıq heç kimə sirr deyil ki, vəziyyət nədən ibarətdir. Kim işğalçıdır, kim işğalın qurbanıdır. Ona görə danışıqlar prosesini pozmaq üçün onlar bu təxribata əl atdılar. Bu təxribat nəticəsində biz şəhidlər verdik. Şəhidlərimiz olubdur, yaralılar var. Ancaq onu da bilməlisiniz, Azərbaycan xalqı bilir ki, düşmənə çox böyük sarsıdıcı zərbə vurulubdur. Bunun günahkarı onlar özləridir.

Bu gün mən döyüşlərdə qəhrəmancasına vuruşmuş hərbiçilərlə, yaralı uşaqlarımızla görüşdüm, onlarıtəbrik etdim. Bir vətəndaş, Ali Baş Komandan, Prezident kimi onlara Azərbaycan xalqı, dövləti adından təşəkkürümü bildirdim. Biz onlarla fəxr edirik.

**(Ardı 4-cü səhifədə)**

# Prezident İlham Əliyev Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Klinik Hospitalında müalicə olunan yaralı hərbçilərə baş çəkib

(Əvvəli 3-cü səhifədə)

Sizə də öz minnətdarlığımı bildirmək istəyirəm ki, belə gözəl, vətənpərvər, bacarıqlı, cəsarətli övladlar böyütmüsünüz. Bax, onlar indi yaralı vəziyyətdə uzanıblar, yenə də deyirlər ki, istəyirik tezliklə buradan çıxaq gedək döyüş bölgələrinə. Bu, Azərbaycan xalqının ucalığıdır. Bu göstərir ki, bizim xalqımız nə qədər dəyərlidir, mətindir, vətənpərvərdir.

Uşaqlar müstəqillik dövründə formalaşıblar. Onlar müstəqil Azərbaycan bayrağı altında böyüyüblər. Onlarda milli qürur hissi, milli ləyaqət hissi çox yüksəkdir. Mən həmişə demişəm ki, bizim bütün gənclərimiz vətənpərvər, Vətənə bağlı olmalıdırlar. Bax, sizin övladlarınız, yaxınlarınız o gənclərdəndir, onlar nümunədir.

Mən bir daha sizə təşəkkürümü bildirmək istəyirəm ki, Vətən üçün belə övladlar böyütmüsünüz. Onların çox gözəl gələcəyi olacaqdır. Onlar artıq sübut ediblər ki, dövlətimizin dəyərli vətəndaşlarıdır. Onlar gələcəkdə müxtəlif sahələrdə işləyəcəklər, kimi hərbi sahədə, kimi mülki sahədə. Ancaq onlar artıq sübut ediblər ki, doğrudan da, layiqli vətəndaş kimi gələcəkdə Azərbaycanda özləri üçün yaxşı həyat qurmalıdırlar, quracaqlar. Biz onlarla, onları böyüdən valideynlərlə fəxr edirik. Həkimlər mənə deyirlər ki, yaralananların hamısı sağalacaq. Onların sağlamlığı tam bərpa olunmalıdır və tam bərpa olunacaqdır. Həkimlər əllərindən gələni edirlər və edəcəklər. Mən gəlmişəm ki, onlara və sizə təşəkkürümü bildirim. Bir daha deyim ki, ölkəmizin ərazi bütövlüyü Azərbaycan xalqının, hər bir Azərbaycan vətəndaşının müqəddəs borcudur. Ölkəmizin ərazi bütövlüyü heç vaxt danışıqlar mövzusu olmayıb və olmayacaqdır. Əgər bu gün yenə də Ermənistan rəhbərliyi öz səhvlərini başa düşüb danışıqlar masasında özünü səmimi apararsa, əminəm ki, məsələnin sülh yolu ilə həlli üçün imkanlar var. Hər halda biz bunu istəyirik.

Bir daha demək istəyirəm, Azərbaycan bu gün də bəyan edir ki, birtərəfli qaydada bütün döyüş əməliyyatlarını dayandırır, amma bir şərtlə ki, qarşı tərəf bundan istifadə etməsin. Onlar da dayandırsınlar, oturduğu yerlərdə də qalsınlar, tərpənməsinlər. Biz öz torpağımızdayıq. Bizim başqa ölkənin torpağında gözümüz yoxdur. Heç bir başqa ölkənin torpağını işğal etməmişik. Amma heç kimə imkan verməyəcəyik ki, bizim torpağımızda hökmranlıq etsin. Artıq Azərbaycan dövləti də güclü dövlətdir, ordusu da güclü ordudur. Bax, bizim burada müalicə alan qəhrəman uşaqlarımız bunun ən gözəl sübutudur, təzahürüdür.

Bir daha sizə minnətdarlığımı bildirirəm. Allah sizə səbir versin. Yaxınlarınız, uşaqlarınız tezliklə sağalsınlar.

Şəhid ailələrinin və yaralıların yaxınları: Cənab Prezident, lazım gəlsə, biz övladlarımızla bərabər özümüz də Vətənimizin müdafiəsi uğrunda döyüşməyə hazırıq. Biz həmişə Sizinləyik, Sizi dəstəkləyirik. Fəxr edirik ki, Sizin kimi Prezidentimiz var. Hamımız bir nəfər kimi Sizin arxanızda dayanmışıq. Qələbə bizimdir. Biz övladlarımızı Vətən üçün böyütmüşük.

Prezident İlham Əliyev: Sağ olun.

* * *

Sonda xatirə şəkli çəkdirildi.

**AZƏRTAC**

# Cəbhədəki vəziyyətə dair son məlumatlar

***5 aprel 2016-cı il.***

Aprelin 4-də axşam saatlarında və aprelin 5-nə keçən gecə ərzində bütün cəbhə boyu vəziyyət gərgin olaraq qalıb.

Cəbhə xəttinin Xocavənd-Füzuli və Ağdərə-Tərtər istiqamətlərində itirilmiş mövqelərinin geri alınmasının heç bir nəticə vermədiyini anlayan Ermənistan tərəfi qoşunların təmas xəttinə yaxın yaşayış məntəqələrini atəşə tutmaqda davam edir.

Bu istiqamətdə düşmənin ən iri hərbi bazalarından biri sayılan, Ağdərə şəhərinə aparan əsas yol üzərində və onun şimalında yerləşən strateji baxımdan əhəmiyyətli Madagiz məntəqəsindəki hərbi bazanın qərargahı dəqiq zərbələrlə dağıdılıb.

Aprelin 4-də axşam saatlarında düşmənin müdafiə xəttində, mühəndis baxımdan hazırlanmış və dairəvi atəşə tutma üçün səngərlərdə yerləşən 3 ədəd döyüş tankı heyətlə birlikdə atəş gücü vasitəsilə məhv edilib.

Cəbhənin Xocavənd-Füzuli istiqamətində yerləşən hərbi birliyimiz də qarşı tərəfin atəş vasitəsilə yaşayış məntəqələrimizə ziyan vurmaq təhlükəsini minimallaşdırmaq məqsədilə düşmənin 2 ədəd tankını heyətlə birlikdə və hərbi əmlakla dolu 5-dək təkərli texnikasını sıradan çıxarıb.

Ümumilikdə aprelin 4-ü gün ərzində və aprelin 5-i səhər saatlarınadək keçirilən əməliyyat tədbirləri və cavab atəş zərbələri nəticəsində erməni-lər canlı qüvvə sarıdan daha 70 nəfərədək itkiyə məruz qalıb, 20-dək hərbi texnikası tam sıradan çıxarılıb.

Bütün cəbhə boyu son iki gün ərzində düşmənlə döyüşlərdə igidlik və rəşadətlə vuruşan Silahlı Qüvvələrimizin hərbi qulluqçularından 16 nəfəri şəhid olub.

Müdafiə Nazirliyinin rəhbərliyi şəhid olan hərbi qulluqçuların yaxınlarına və ailələrinə dərin hüznlə başsağlığı verir və səbr diləyir.

Hazırda cəbhədə əldə edilən əməliyyat üstünlüyünü saxlamaq məqsədilə Silahlı Qüvvələrimiz müvafiq tədbirlər həyata keçirir.

* * *

Uğursuzluğa düçar olan və məğlubiyyətlə qarşılaşan Ermənistanın hərbi və siyasi rəhbərliyi anti-Azərbaycan niyyətli xarici KİV-in də fəaliyyətindən bəhrələnərək ölkəmiz haqqında təxribat xarakterli, guya Suriyada İŞİD terrorçu təşkilatının tərkibində fəaliyyət göstərən azərbaycanlıların Qarabağda ermənilərə qarşı hərbi əməliyyatlarda iştirak etmək məqsədilə Türkiyə ərazisindən keçərək Azərbaycana gəlmələri barədə yaydıqları məlumatlar tamamilə əsassızdır və dezinformasiyadır.

Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin hərbi-texniki imkanları və potensialı ölkəmizin suverenliyinin, ərazi bütövlüyünün və toxunulmazlığının yüksək səviyyədə təmin edilməsi üçün tam yetərlidir.

Bir daha bildiririk ki, istənilən terror təşkilatının fəaliyyəti onun üzvlərinin milli, dini və digər mənsubiyyətindən asılı olmayaraq, beynəlxalq sülh və təhlükəsizliyə, eləcə də milli təhlükəsizliyə ciddi təhdiddir. Hər hansı niyyətlə, Azərbaycan Respublikasının ərazisinə keçməyə cəhd edən terror təşkilatı üzvləri müəyyən edilərək məsuliyyətə cəlb ediləcəklər.

* * *

Müdafiə Nazirliyi bildirir ki, aprelin 5-də saat 12.00-dan etibarən Azərbaycan-Ermənistan qoşunlarının təmas xəttində tərəflərin razılığı ilə əməliyyatlar dayandırılıb.

Silahlı Qüvvələrimizin bölmələri azad edilmiş torpaqlarda möhkəmləndirmə işlərini həyata keçirir.

* * *

İşğal altında olan torpaqlarımızın azad edilməsi məqsədilə bölmələrimizin son günlərdə keçirdiyi hərbi əməliyyatlarda iştirak etmək üçün Azərbaycanın minlərlə vətənpərvər oğul və qızları, hətta əsgəri xidmətə yaşı çatmayan 15-17 yaşlı gəncləri, xaricdə yaşayan soydaşlarımız, ehtiyatda olan hərbi qulluqçular, müharibə əlilləri və veteranları müraciət ünvanlayaraq Silahlı Qüvvələrə səfərbər olunmağa hazır olduqlarını bildirirlər.

Müdafiə Nazirliyinin rəhbərliyi Azərbaycanda, eyni zamanda respublikadan kənarda yaşayan vətənpərvər oğul və qızlarımızla qürur duyduğunu bildirir və əsgərlərimizə göstərilən mənəvi dəstəyə görə minnətdarlığını ifadə edir.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# Türkiyə və Azərbaycanın Müdafiə nazirləri cəbhədə yaranmış vəziyyəti müzakirə ediblər

***2 aprel 2016-cı il.***

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Türkiyə Respublikasının Milli Müdafiə naziri cənab İsmet Yılmaz və Baş Qərargah rəisi ordu generalı Hulusi Akar ilə Azərbaycanın işğal olunmuş ərazilərində baş vermiş hadisələri və burada yaranmış vəziyyəti telefon vasitəsilə müzakirə ediblər.

Danışıqlar zamanı Türkiyə tərəfi Azərbaycanın tam haqlı mövqedə olduğunu bir daha vurğulamış və Azərbaycana dəstək olduğunu qətiyyətlə ifadə etmişdir.

# Türkiyə Respublikasının Baş Qərargah rəisi Müdafiə nazirinə başsağlığı məktubu ünvanlayıb

***3 aprel 2016-cı il.***

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Türkiyə Respublikasının Baş Qərargah rəisi ordu generalı Hulusi Akar cəbhədə baş verən döyüş toqquşması nəticəsində hərbçilərimizin şəhid olması ilə əlaqədar Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənova başsağlığı məktubu ünvanlayıb.

Məktubda bildirilir:

"2 aprel 2016-cı il tarixdə Azərbaycan-Ermənistan qoşunlarının təmas xəttində baş verən döyüş qarşıdurmasında qəhrəman on iki əsgərinizin şəhid olduğunu dərin bir üzüntü ilə öyrəndim.

Dost və qardaş Azərbaycan Silahlı Qüvvələrinin bu hadisə səbəbi ilə yaşadığı acını ürəkdən bölüşürəm.

Şəxsim və Türk Silahlı Qüvvələri şəxsi heyəti adından şəhid olan hərbi qulluqçulara Uca Allahdan rəhmət, yaxınlarına, Sizə və şəxsinizdə Azərbaycan Silahlı Qüvvələrinin dəyərli şəxsi heyətinə başsağlığı verirəm."

# Azərbaycan və İranın Müdafiə nazirləri qoşunların təmas xəttində yaranmış vəziyyəti müzakirə ediblər

***3 aprel 2016-cı il.***

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, aprelin 3-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov İran İslam Respublikasının Müdafiə və Silahlı Qüvvələrə dəstək naziri general-mayor Hüseyn Dehqan ilə qoşunların təmas xəttində yaranmış gərginliyi telefon vasitəsilə müzakirə ediblər.

Danışıqlar zamanı general-mayor H.Dehqan İran İslam Respublikasının Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bir daha qeyd edərək, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin qısa müddət ərzində beynəlxalq hüquq normaları əsasında həll olunacağına ümid etdiyini bildirib. O, İranın Azərbaycan tərəfinə münaqişənin həll olunması istiqamətində yardım və dəstəyini təklif edib.

General-polkovnik Zakir Həsənov dəstəyə görə minnətdarlığını ifadə edib.

# Azərbaycanın və Gürcüstanın Müdafiə nazirlərinin cəbhədə yaranmış vəziyyətlə bağlı telefon danışıqları olub

***4 aprel 2016-cı il.***

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, aprelin 4-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Gürcüstanın Müdafiə naziri xanım Tinatin Xidaşeli ilə qoşunların təmas xəttində yaranmış vəziyyəti telefon vasitəsilə müzakirə ediblər.

Danışıqlar zamanı xanım T.Xidaşeli Gürcüstanın daim Azərbaycanın ərazi bütövlüyünü təmin olunmasını dəstəklədiyini qeyd edərək, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin qısa müddət ərzində beynəlxalq hüququn normaları əsasında həll olunacağına ümid etdiyini bildirib.

General-polkovnik Zakir Həsənov dəstəyə görə Gürcüstan tərəfinə minnətdarlığını ifadə edib.

# Torpaqlarımız uğrunda gedən döyüşlərdə həlak olan şəhidlərimiz son mənzilə yola salınıb



Cəbhənin Füzuli istiqamətində erməni hərbi birləşmələrinin təxribatının qarşısını alarkən şəhid olan Xocalı şəhərindən məcburi köçkün, Ağdam rayonu Üçoğlan kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyinin Ballar kəndində məskunlaşmış Mehralıyev Sarvan Natiq oğlu aprelin 3-də son mənzilə yola salınıb.

Müdafiə Nazirliyinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin, Ağdam və Xocalı rayon İcra hakimiyyətlərinin nümayəndələrinin, Milli Məclisin deputatı Elman Məmmədovun da iştirak etdiyi vida mərasimində çıxış edənlər şəhid olan əsgərlərimizə Allahdan rəhmət diləyib, cəbhəboyu mövqelərimizin və yaşayış məntəqələrinin atəşə tutulmasından, düşmənə verilən layiqli cavabdan bəhs ediblər. Bildirilib ki, Azərbaycan Ordusunun qısa müddətdə həyata keçirdiyi əks-həmlə zamanı erməni hərbi birləşmələrinin uzun illərdən bəri mühəndis-istehkam baxımından möhkəmləndirdiyi birinci müdafiə xətti cəbhənin bəzi istiqamətlərində yarılıb, strateji əhəmiyyətə malik bir neçə yüksəklik və yaşayış məntəqəsi düşməndən azad olunub. Döyüşlərdə ermənilərə məxsus xeyli hərbi texnika və canlı qüvvə məhv edilib.

Çıxışlarda ağdamlıların şəhidlərimizin intiqamını almaq, işğal altındakı torpaqlarımızı azad etmək üçün Ali Baş Komandanın əmrinə hər an hazır olduqları bildirilib.

Şəhidin cənazəsi kənd qəbiristanlığında torpağa tapşırılıb, məzarı üstünə əklil və tər qərənfillər qoyulub. Şəhidin tabutu üzərinə çəkilmiş üçrəngli Azərbaycan bayrağı ailəsinə təqdim edilib.

* * *

Aprelin 2-də qoşunların təmas xəttində erməni işğalçıları ilə döyüşdə şəhid olan "N" hərbi hissəsinin giziri İsgəndərov Nicat Bəhruz oğlu aprelin 3-də doğulduğu Tərtər şəhərində dəfn edilib.

Dəfn mərasimində şəhidin doğmaları, Tərtər rayon İcra Hakimiyyətinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin, "N" hərbi hissəsinin, rayon ictimaiyyətinin nümayəndələri, Qarabağ müharibəsi veteranları iştirak ediblər.

Vida mərasimində Tərtər rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov, Milli Məclisin deputatı Sahib Alıyev, Qarabağ Müharibəsi Veteranları, Əlilləri və Şəhid Ailələri İctimai Birliyinin rayon şöbəsinin sədri Suliddin Yusifov və digərləri çıxış edərək, şəhidin ailəsinə dərin hüznlə başsağlığı veriblər. Mərasimdə Azərbaycan əsgərlərinin Vətənin müdafiəsindəki şücaətindən bəhs olunub, şəhidlərin ruhlarına dualar oxunub.



Şəhidin atası Bəhruz İsgəndərov Vətənə xidmətin hər bir övladın borcu olduğunu deyərək, şəhid oğlu ilə fəxr etdiyini bildirib.

* * *

Cəbhədə gedən döyüşlərdə şəhid olan əsgər Orxan Əliyev doğulduğu Qazax rayonunun Aslanbəyli kəndində torpağa tapşırılıb. Dəfn mərasimində Müdafiə Nazirliyinin, rayon İcra Hakimiyyətinin, hüquq mühafizə orqanlarının əməkdaşları və şəhidin hərbçi yoldaşları iştirak ediblər.

Böyük insan izdihamı ilə son mənzilə yola salınan 20 yaşlı Orxan Əliyev 9 ay öncə hərbi xidmətə çağırılıb. Yaxınları ailənin ikinci övladı olan Orxanı hər zaman vətənsevər, mərd, cəsur bir gənc kimi tanıdıqlarını bildiriblər.

Çıxış edən hərbçilər də şəhidlik zirvəsinə ucalan əsgərin döyüş tapşırıqlarını layiqincə yerinə yetirdiyini diqqətə çatdırıblar.

Şəhid əsgər yaylım atəşləri altında kənd qəbiristanlığında dəfn edilib. Tabutun üzərindəki üçrəngli Azərbaycan bayrağı şəhidin atası Məmməd Əliyevə təqdim edilib.

* * *

Torpaqlarımızın 20 faizini işğal edən mənfur erməni silahlı qüvvələrinin növbəti təxribatı nəticəsində 12 nəfər hərbi qulluqçumuz şəhid olub. Onlardan biri Şamaxının Çuxuryurd kəndindən olan əsgər Samir Kaçayevdir. Şəhid əsgər Samir Kaçayev aprelin 3-də Məlhəm qəbiristanlığında torpağa tapşırılıb.

Samir Ziyəddin oğlu Kaçayev 1994-cü il martın 3-də dünyaya gəlib. Ailədə bir bacı, bir qardaş olublar. Ötən il Azərbaycan Dövlət Rəssamlıq Akademiyasını bitirib və heykəltəraş ixtisasına yiyələnib. Magistraturaya qəbul olunan Samir hərbi xidmətə gedib. Ermənistan silahlı qüvvələrinin təxribatı zamanı aprelin 1-dən 2-nə keçən gecə qulluq etdiyi Tərtər rayonundakı hərbi hissədə şəhid olub.

Bakıdan dəfn mərasiminə gələn tələbə yoldaşları Mahirə Qasımova və Nəzrin Xələfova AZƏRTAC-ın müxbiri ilə söhbətlərində Samirin istedadlı heykəltəraş olduğunu, ətrafdakılara xeyirxahlığını, doğma Vətəni Azərbaycanı dünyalar qədər sevdiyini söyləyiblər.

Şəhid əsgərimizin izdihamlı dəfn mərasimi keçirilib. Müdafiə Nazirliyinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin, rayon icra hakimiyyətinin, hüquq mühafizə orqanlarının əməkdaşları, kənd sakinləri, rayon ictimaiyyətinin nümayəndələri, Milli Məclisin deputatları Aqil Abbas, Məlahət İbrahimqızı və Sevinc Hüseynova mərasimdə iştirak ediblər.

Çıxış edənlər 200 ildən bəri erməni daşnaklarının Azərbaycan torpaqları hesabına "böyük Ermənistan" yaratmaq kimi xülyaları barədə danışıblar. Vurğulanıb ki, artıq Azərbaycan Ordusunun mənfur düşmənə tutarlı cavab vermək vaxtı çatıb. Şübhə yoxdur ki, Prezident, Ali Baş Komandan İlham Əliyevin qətiyyətli mövqeyi, ordumuzun qüdrəti düşməni layiq olduğu yerdə oturdacaq, şəhidlərimizin qanı yerdə qalmayacaq.

* * *

Aprelin 2-nə keçən gecə erməni silahlı qüvvələrinin təxribatları nəticəsində cəbhə bölgəsində gedən döyüşlərdə şəhid olan Zaqatala rayonunun Muxax kənd sakini, 19 yaşlı Rəvan Nurayev aprelin 3-də doğulduğu kənddə torpağa tapşırılıb.



Şəhidin dəfn mərasimində Müdafiə Nazirliyinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin, Zaqatala rayon İcra Hakimiyyətinin rəsmiləri, şəhidin döyüş yoldaşları, rayon ictimaiyyətinin nümayəndələri və kənd sakinləri iştirak ediblər.

Dəfn mərasimində çıxış edənlər torpaqlarımızı mənfur düşməndən azad etməyə hər an hazır olduqlarını, Ali Baş Komandan İlham Əliyevin əmrini gözlədiklərini bildiriblər.

* * *

Aprelin 2-nə keçən gecə cəbhənin Füzuli istiqamətində erməni hücumunun qarşısını alarkən şəhid olan 22 yaşlı Ruhin Qəhrəmanov aprelin 4-də Biləsuvar rayonu ərazisində cəbrayıllı məcburi köçkünlər üçün salınmış 3 nömrəli qəsəbə qəbiristanlığında dəfn olunub.

Dəfn mərasimində Müdafiə Nazirliyinin, Cəbrayıl və Xocavənd rayon İcra hakimiyyətlərinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin əməkdaşları, şəhidin xidmət etdiyi hərbi hissənin komandirləri və əsgər yoldaşları, ailə üzvləri və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Cəbrayıl rayonunun Xudaverdilər kəndindən məcburi köçkün olan Ruhin Qəhrəmanov ailənin 5 övladından ikincisi olub. Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu idi.

* * *

Aprelin 4-də erməni silahlı qüvvələrinin təxribatları nəticəsində cəbhə bölgəsində gedən döyüşlərdə şəhid olan Azərbaycan Ordusunun giziri 1986-cı il təvəllüdlü Novruzov Ravil Elman oğlu torpağa tapşırılıb.

Şəhid doğulduğu Xızı rayonunun Giləzi qəsəbəsində dəfn olunub.

Şəhidin dəfn mərasimində Müdafiə Nazirliyinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin, Xızı rayon İcra Hakimiyyətinin rəsmiləri, şəhidin döyüş yoldaşları, rayon ictimaiyyətinin nümayəndələri və kənd sakinləri iştirak ediblər.

Mərasimə qatılanlar Ravilin vətənpərvər övlad olmasından, doğma Vətəni Azərbaycana sevgisindən danışıblar.

Şəhidin atası Elman Novruzov torpaqlarımızın azadlığı uğrunda canından keçən oğlu ilə fəxr etdiyini söyləyib.

Şəhid Ravil Novruzov torpağa tapşırıldıqdan sonra onun atasına Azərbaycan bayrağı təqdim edilib.

**(Ardı 6-cı səhifədə)**

# Torpaqlarımız uğrunda gedən döyüşlərdə həlak olan şəhidlərimiz son mənzilə yola salınıb

(Əvvəli 5-ci səhifədə)

Aprelin 2-nə keçən gecə cəbhənin Tərtər istiqamətində erməni silahlı qüvvələrinin torpaqlarımıza qəfil hücumunun qarşısını alarkən qəhrəmancasına həlak olan Milli Ordumuzun 22 yaşlı əsgəri Elmdar Səlimxan oğlu Səfərovun üçrəngli bayrağa bürünmüş cənazəsi ötən gün axşam saatlarında böyüyüb boya-başa çatdığı Neftçala rayonunun Aşağı Qaramanlı kəndinə gətirilib. Aprelin 4-də şəhid doğulduğu kənddə dəfn olunub.

Dəfn mərasimində Müdafiə Nazirliyinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin, rayon İcra Hakimiyyətinin rəsmiləri, şəhidin ailə üzvləri və döyüş yoldaşları, ictimaiyyətin nümayəndələri və kənd sakinləri iştirak ediblər.

Mərasimdə çıxış edənlər mərhumun ailə üzvləri və yaxınlarına dərin hüznlə başsağlığı verib, Elmdar Səfərovun keçdiyi döyüş yolundan danışıblar. Bildirilib ki, Vətən yolunda canından keçən Elmdar kimi Azərbaycan oğullarının xatirəsi qədirbilən xalqımızın yaddaşında əbədi yaşayacaq.





* * *

Aprelin 2-nə keçən gecə erməni silahlı qüvvələrinin təxribatları nəticəsində cəbhə bölgəsində gedən döyüşlərdə şəhid olan 1990-cı il təvəllüdlü Qarayev Dilsuz Məmmədağa oğlu aprelin 4-də doğulduğu Ağcabədi rayonunun Hindarx qəsəbəsində torpağa tapşırılıb.

Dəfn mərasimində Müdafiə Nazirliyinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin, Ağcabədi rayon İcra Hakimiyyətinin nümayəndələri, şəhidin doğmaları, qəsəbə sakinləri, gənclər, Qarabağ müharibəsi veteranları olmaqla, 10 min nəfərdən çox insan iştirak edib.

Vida mərasimində çıxış edənlər şəhid olan Silahlı Qüvvələrimizin hərbi qulluqçularına Allahdan rəhmət diləyib, şəhidin ailəsinə dərin hüznlə başsağlığı veriblər. Əminliklə bildirilib ki, müzəffər ordumuz şəhidlərimizin qanını yerdə qoymayacaq, işğal altında olan bütün torpaqlarımız azad ediləcək. Dəfn mərasimində "Şəhidlər ölməz, Vətən bölünməz!" şüarı səsləndirilib.

Şəhidin cənazəsi qəsəbə qəbiristanlığında əsgəri ənənələrə uyğun olaraq yaylım atəşləri altında torpağa tapşırılıb, məzarı üstünə əklil və tər qərənfillər qoyulub. Şəhidin tabutu üzərinə çəkilmiş üçrəngli dövlət bayrağı ailəsinə təqdim edilib.

* * *

Aprelin 2-dən 3-nə keçən gecə cəbhə bölgəsində baş vermiş döyüşlərdə Azərbaycan Ordusunun şəhid olmuş əsgəri, 20 yaşlı Nurəddin Etimad oğlu Mirzəyev aprelin 4-də doğulduğu Yardımlı rayonunun Honuba kəndində son mənzilə yola salınıb.

Dəfn mərasimində Müdafiə Nazirliyinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin, rayon İcra hakimiyyətinin rəsmiləri, şəhidin ailə üzvləri və döyüş yoldaşları, ictimaiyyət nümayəndələri və kənd sakinləri iştirak ediblər.

Mərasimdə çıxış edənlər mərhumun ailə üzvləri və yaxınlarına dərin hüznlə başsağlığı verib, Nurəddin Mirzəyevin keçdiyi döyüş yolundan danışıblar.

Diqqətə çatdırılıb ki, Vətən yolunda canından keçən Azərbaycan övladlarının xatirəsi qədirbilən xalqımızın yaddaşında əbədi yaşayacaq.

Dəfn mərasimində Azərbaycanın üçrəngli bayrağı şəhidin atasına təqdim edilib.

* * *

Aprelin 3-də cəbhənin Füzuli istiqamətində erməni silahlı qüvvələrinin torpaqlarımıza qəfil hücumunun qarşısını alarkən qəhrəmancasına şəhid olan Azərbaycan Ordusunun 20 yaşlı əsgəri Novruzov Fərahim Nadir oğlu aprelin 4-də böyüyüb boya-başa çatdığı Biləsuvar rayonunun Səmədabad kəndində torpağa tapşırılıb.

Dəfn mərasimində Müdafiə Nazirliyinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin, rayon İcra Hakimiyyətinin rəsmiləri, şəhidin ailə üzvləri və döyüş yoldaşları, ictimaiyyətin nümayəndələri və kənd sakinləri iştirak ediblər.

Mərasimdə çıxış edənlər qüdrətli Azərbaycan Ordusunun düşmənə hər an tutarlı cavab verməyə hazır olduğunu, şəhidlərimizin qanının yerdə qalmayacağını, Prezident, Ali Baş Komandan İlham Əliyevin əmrini gözlədiklərini bildiriblər.

Şəhidin atası Nadir Novruzov oğul itkisinin ağır olmasına baxmayaraq onun şəhidliyindən qürur duyduğunu bildirib.

* * *

Cəbhənin Füzuli istiqamətində erməni silahlı qüvvələrinin təxribatının qarşısını alarkən qəhrəmancasına həlak olan Milli Ordumuzun 23 yaşlı döyüşçüsü Dəmirli Hüseyn Zeynal oğlunun üçrəngli bayrağa bürünmüş cənazəsi ötən gün axşam saatlarında doğulduğu Biləsuvar şəhərinə gətirilib. Aprelin 5-də şəhid şəhər qəbiristanlığında dəfn olunub.

Dəfn mərasimində Müdafiə Nazirliyinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin, rayon İcra Hakimiyyətinin rəsmiləri, şəhidin ailə üzvləri və döyüş yoldaşları, ictimaiyyətin nümayəndələri və kənd sakinləri iştirak ediblər.

Mərasimdə çıxış edənlər, mərhumun ailə üzvləri və yaxınlarına dərin hüznlə başsağlığı verib, şəhidin keçdiyi döyüş yolundan danışıblar. Bildirilib ki, qüdrətli Azərbaycan Ordusu düşmənə hər an tutarlı cavab verməyə hazırdır, Vətən yolunda canından keçən qəhrəman Azərbaycan oğullarının xatirəsi xalqımızın qəlbində əbədi yaşayacaq.

* * *

Azərbaycan Ordusunun şəhid olan əsgəri, 1997-ci il təvəllüdlü Cəbrayılov Ömər Məzahir oğlu aprelin 5-də doğulduğu Ağdaş rayonunda dəfn edilib.

Şəhid Ömər Cəbrayılovun nəşi Ağdaş rayonunun Şəkili kəndindəki məzarlıqda torpağa tapşırılıb. Dəfn mərasimində Müdafiə Nazirliyinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin nümayəndələri, Ağdaş rayon İcra Hakimiyyətinin, rayon hüquq-mühafizə orqanlarının rəhbərliyi, kənd sakinləri ilə yanaşı, şəhidin qulluq etdiyi hərbi hissənin əsgər və zabitləri, rayon ictimaiyyəti də iştirak ediblər.



Dəfn mərasimində "Şəhidlər ölməz, Vətən bölünməz!" şüarı səsləndirilib, şəhid əsgər yaylım atəşi altında son mənzilə yola salınıb.

Qeyd edək ki, şəhid Ömər Cəbrayılov cəbhənin Füzuli rayonu istiqamətində Azərbaycan-Ermənistan qoşunlarının təmas xəttində döyüş tapşırığını yerinə yetirən zaman düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Şəhidin atası Məzahir Cəbrayılov oğlu ilə fəxr etdiyini bildirib. O, Vətən uğrunda canlarından keçən bütün şəhidlərimizə Allahdan rəhmət diləyib. Şəhidin qardaşı, Şəkili kənd orta məktəbinin 9-cu sinif şagirdi Musa Cəbrayılov qardaşı Ömərlə qürur duyduğunu, hərbi xidmətə gedərək düşmənlərdən qardaşının qisasını almaq istədiyini bildirib.

* * *

Aprelin 4-də Silahlı Qüvvələrimizin 20 yaşlı əsgəri Cabbarxan İlham oğlu Hacıağayev cəbhə bölgəsində baş verən döyüşlərin birində qəhrəmancasına şəhid olub. O, aprelin 5-də Bakı şəhərində son mənzilə yola salınıb.

Dəfn mərasimində Müdafiə Nazirliyinin, Dövlət Sərhəd Xidmətinin, Daxili İşlər Nazirliyinin, Binəqədi rayon İcra Hakimiyyətinin rəsmiləri, şəhidin ailə üzvləri və xeyli sayda şəhər sakini iştirak edib.

Şəhidin atası İlham Hacıağayev bildirib ki, 1992-1993-cü illərdə Füzuli rayonu uğrunda gedən döyüşlərdə yaxından iştirak edib. "Oğlum bir zaman döyüşdüyüm torpaqlarda şəhid olub. Vətən uğrunda şəhid olmaq mənə qismət olmadı. Hərbi xidmətini başa vurmaqda olan Cabbarxan şəhid oldu. Kiçik oğlum Rəhim Dövlət Sərhəd Xidmətinin xüsusi məktəbində təhsil alır. Qızım Yeganə isə gizir olaraq Azərbaycan Silahlı Qüvvələrində xidmət edir. Vətənə, xalqa, millətə bağlı bir vətəndaş olaraq işğalda olan torpaqlarımızın düşməndən azad olunacağı günün həsrətindəyəm. Azərbaycanımız üçün son nəfəsədək mübarizə aparmağı bacaran övladlar böyüdüb tərbiyə etmişəm. Bu gün məyus, üzgün deyiləm. Şəhid atasıyam mən. Oğlum haqq davasında haqqın dərgahına qovuşub. Bu yolda canlarından keçən bütün şəhidlərimizə Allahdan rəhmət diləyirəm", - deyə şəhid atası mərasimdə bildirib.

Sonra çıxış edən Binəqədi rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərov, Müdafiə Nazirliyinin zabiti polkovnik-leytenant Faiq Qəribov və digərləri mərhumun ailə üzvlərinə və yaxınlarına dərin hüznlə başsağlığı verərək, Vətən yolunda canlarından keçən igidlərin xalqımızın yaddaşında əbədi yaşayacaqlarını qeyd ediblər.

Sonda Azərbaycanın üçrəngli bayrağı xatirə olaraq şəhidin atasına təqdim edilib.

**"Azərbaycan Ordusu"**

# Hərbi attaşelərin iştirakı ilə Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsində toplantı keçirilib



***Aprelin 4-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun göstərişinə əsasən, ölkəmizdə akkreditə olunmuş xarici dövlətlərin hərbi attaşelərinin iştirakı ilə Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsində toplantı keçirilib.***

Toplantıda Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsinin rəisi general-mayor Hüseyn Mahmudov iştirak edib.

Görüşdə Ermənistan-Azərbaycan qoşunlarının təmas xəttində son zamanlar yaranan gərginliklə bağlı, o cümlədən atəşkəsin pozulması səbəbləri, düşmənin müdafiənin ön xəttinə etdiyi basqın cəhdləri, erməni silahlı qüvvələri tərəfindən iriçaplı silahlardan mütəmadi olaraq cəbhə xətti boyu yerləşən Azərbaycan kəndlərinin atəşə tutulması barədə hərbi attaşelərə obyektiv məlumatlar təqdim edilib.

Bundan əlavə, hərbi attaşelər mülki əhalinin yaşayış binalarının, nəqliyyat vasitələrinin və sahəyanı ərazilərinin intensiv artilleriya silahlarından atəşin altında saxlanması, bunun nəticəsi olaraq düşmənin təxribatçı hərəkətlərinin qarşısının alınması barədə məlumatlandırılıblar.

Sonda toplantı iştirakçılarının sualları cavablandırılıb.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

*Əməkdaşımız cəbhədən xəbər verir*

# Vətəndaşlarımız yüksək döyüş ovqatındadır



Aprelin 5-də də gecəyarıdan düşmən döyüş mövqelərimizi və təmas xəttinə yaxın yaşayış məntəqələrimizi artilleriya silahlarından atəşə tutub. Ərazidə yaşayan dinc sakinlər arasında itkilər qeydə alınıb. Təsərrüfatlara və şəxsi mülklərə ciddi ziyan dəyib. Bir sıra dövlət və ictimai obyektlər düşmənin açdığı atəş nəticəsində dağılıb. Təmas xəttində dayanan mətin döyüşçülərimiz mənfur düşmənə bəd niyyətlərini həyata keçirməyə imkan verməyib. Ordumuzun bölmələri bir neçə istiqamətdən düşmən mövqelərini yarıb keçməklə qarşı tərəfin strateji nöqtələrini darmadağın ediblər. 20 ildən artıq işğal altında qalan Talış, Seysulan kəndləri və bir sıra ərazilərimiz hazırda ordumuzun tam nəzarətindədir. Qürurla qeyd etmək lazımdır ki, cəbhə bölgəsində döyüşən şəxsi heyətdə ruh yüksəkliyi var və onlar düşmənə böyük itkilər verməklə əzəli torpaqlarımızı son qarışına kimi azad etməyə qadirdirlər.

Cəbhə bölgəsinə yaxın ərazidə yaşayan əhalidə də böyük ruh yüksəkliyi yaranıb. Onlar torpaqlarımızın işğaldan azad edilməsi üçün döyüşməyə hazır olduqlarını bildirirlər. Tərtər rayonunda yüzlərlə Qarabağ döyüşçüsü yenidən silaha sarılmaq üçün bölgədəki hərbi hissənin komandanlığına müraciət edib. Onlardan biri - 1992-1994-cü illərdə Tərtər-Ağdərə uğrunda döyüşlərin fəal iştirakçısı, müharibə veteranı Zirəddin Məmmədov deyir ki, cəbhədə vəziyyət gərginləşən gündən biz veteranlar da bir nəfər kimi torpaqlarımızı azad etmək üçün döyüşlərə atılmağa hazırıq. "Bir neçə gündür hərbi hissəyə gələrək döyüşə yollanmaq arzumuzu bildiririk. Hörmətli Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin əmriylə torpaqlarımızı azad etmək üçün haqq savaşına gedəcəyik", - keçmiş döyüşçü bildirir.

Başqa bir veteran döyüşçü Qədir Hüseynov zamanında Ağdərə polisinin tərkibində erməni vandallarına qarşı vuruşub. Döyüşlərdən birində ağır yaralanıb və indi də bədənində qəlpələr gəzdirir. Hazırda Bərdə şəhərində yaşayır, cəbhədə vəziyyət gərginləşən kimi döyüşə getmək üçün Tərtərə gəlib. "Məni sevindirən odur ki, ordumuz düşmənə layiqli cavablar verir. Çox sevindirici haldır ki, vaxtında və dəqiq zərbələr alan düşmən geri çəkilməyə məcbur olub. Əsgər və zabitlərimizin rəşadəti bizi ürəkdən sevindirir", - deyə müharibə veteranı ürək sözlərini bölüşür:

- Düşmən özünü nə qədər güclü göstərməyə çalışsa da, ordumuzun qətiyyətli cavab atəşlərindən xilas ola bilmir və ağır itkilər verərək geri çəkilməyə məcbur olur. Ümid edirik ki, şanlı ordumuzun döyüşçüləri erməni işğalı altında olan ərazilərimizi tezliklə son qarışına kimi azad edəcək.

**Mayor**
**Bəxtiyar ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənova Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin çoxsaylı üzvləri adından

# müraciət

Hörmətli cənab nazir!

Aprelin 1-dən 2-nə keçən gecə erməni hərbi birləşmələrinin cəbhənin müxtəlif istiqamətlərində intensiv şəkildə atəşkəsi pozması və artilleriya qüvvələri vasitəsilə mövqelərimizə hücum etməsi xəbəri bizi də hədsiz hiddətləndirib. Əlbəttə, möhtərəm Prezidentimiz, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı cənab İlham Əliyevin böyük diqqət və qayğısı sayəsində güclənmiş ordumuz düşmənin son təxribatlarına da layiqincə cavab verdi. Artıq bəzi istiqamətlərdə strateji əhəmiyyət kəsb edən, həmçinin dinc yaşayış məntəqələrimiz üçün təhlükə törədə bilən ərazilər düşməndən azad edilib. Məhz Sizin rəhbərliyinizlə uğurlu hərbi əməliyyatlar öz layiqli bəhrəsini verib. Şəhid və yaralı döyüşçülərimizə görə üzülsək də, Azərbaycan Ordusunun növbəti parlaq qələbəsini ürəkdən alqışlayırıq.

Hörmətli cənab nazir! Sizin rəhbərliyinizlə ordu ilə xalq arasında möhkəm mənəvi birlik yaranıb. Vətənimizin keşiyində dayanan hərbi qulluqçular arasında yüksək mənəvi-psixoloji əhval-ruhiyyənin yaranmasında əsgərlərlə keçirdiyiniz görüşlərin çox böyük əhəmiyyəti vardır. Bütün bunların nəticəsidir ki, hər an Ali Baş Komandanın əmrini yerinə yetirməyə qadir olan və düşmənə layiqli cavab verən qüdrətli ordumuz formalaşıb.

Cənab nazir, Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin çoxminli üzvü adından Sizi son günlər cəbhə xəttində qazanılan qələbə münasibətilə təbrik edirəm və arzu edirəm ki, ordumuz Ali Baş Komandan cənab İlham Əliyevin və Sizin rəhbərliyiniz altında bundan sonra da xalqımızı yeni-yeni qələbələrlə sevindirsin. Ən böyük qələbə torpaqlarımızın işğaldan tam azad edilməsi olacaq. Biz də döyüşçülərimizə mənəvi köməyimizi göstərmək üçün Sizdən icazə istəyirik. Əmin olun ki, təşkilatımızın hər bir üzvü ordumuza dəstək olmağa daim hazırdır.

Tanrı Azərbaycan Ordusuna yar olsun!

**A.AĞADADAŞOVA,**
**Azərbaycan Respublikası**
**Müdafiə Nazirliyi**
**Birləşmiş Həmkarlar**
**İttifaqı Komitəsinin sədri**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

Silahlı Qüvvələrdə qan və qan komponentlərinə olan tələbat Baş Klinik Hospitalın Qan Bankı bölməsi tərəfindən tam təmin edilir.

Bu barədə məlumat verən hospitalın Qan Bankı bölməsinin rəisi, tibb xidməti polkovnik-leytenantı Kazım Quliyev bildirib ki, hazırda bütün qan və qan komponentləri Qan Bankı bölməsində var. Lazım olan vasitələrlə təmin etmək üçün bölmə hər zaman olduğu kimi 24 saat fasiləsiz fəaliyyət göstərir.

"Ümumiyyətlə, Silahlı Qüvvələrdə bölmələrimiz bütün təminat növləri ilə tam təmin olunub, bu məsələlərlə bağlı narahatçılığa heç bir əsas yoxdur", - deyə K.Quliyev vurğulayıb.

Müdafiə Nazirliyi bir daha xatırladır ki, baş verən hər bir hadisə ilə bağlı nazirliyin rəsmi internet səhifəsində mütəmadi olaraq məlumatlar yerləşdirilir. Hadisələr barədə ancaq rəsmi məlumatlardan istifadə etmək daha məqsədəuyğundur.

* * *

Son günlər sosial şəbəkələrdə ayrı-ayrı şəxslər Silahlı Qüvvələrə yardım adı altında əhaliyə çağırışlar edərək onlardan pul və ərzaq istəyir, vətəndaşları bu tip kampaniyalara qoşulmağa dəvət edirlər.

Bununla əlaqədar bildiririk ki, Silahlı Qüvvələrimiz dövlətimizin, şəxsən Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin hərtərəfli diqqət və qayğısı ilə əhatə olunub. Ordunun maddi-texniki bazasının möhkəmləndirilməsi, həmçinin, ərzaq və digər təminatının daha da yaxşılaşdırılması üçün böyük işlər görülüb, bu istiqamətdə tədbirlər davam etdirilməkdədir. Ona görə də Silahlı Qüvvələrin bu tipli dəstək və yardım kampaniyalarına heç bir ehtiyacı yoxdur.

*Ovqat*

# Hünər də Bayraqdı

**(fraqmentlər)**



Ana ağısıdı,
Bacı fəryadıdı,
Yetimlik ağrısıdı,
Dərd sarğısıdı
müharibə...

Zaman - 92...
Dərdə dirsəklənən kənd...
Qara ölümlər yağır
Göylərin qarasından.
Göyə dayaq,
dərdi oyaq dağların
qan sızır yarasından.
Görüb bu halı,
bu qeylü-qalı,
qara əbalı,
başı havalı
Neçə ölüm dikəlir
daşların arasından...

Qəbristanlıq...
Üç qəbir...
Dərdli qız
Başdaşına baş qoyub
Ağlayır için-için:
"...gəldim halallıq üçün..."...

Qan tutubdu elə bil,
Ətəyindən yapışan
Yeddi yaşlı uşağı
Unudubdu elə bil...
Məzar qardaş,
məzar ana,
məzar ata
Yaşı ömründən böyük qızı
Necə, nə cür toxdada?!

Bir-birinə dəyə-dəyə,
Bir-birini döyə-döyə
sağa-sola mərmi düşür.
Kəsək-kəsək,
çınqıl-çınqıl,
ağac-ağac,
budaq-budaq,
yarpaq-yarpaq dilə gələn
hər suala mərmi düşür...
Uşaq diz çökür...
Görən
nədir uşağın suçu?
Közə dönər göz yaşı
ürəyinə axan qız
Əyilir qardaşını
bağrına basmaq üçün...

Ata-ana - başdaşı,
Böyük qardaş - başdaşı...
Ruhsuz qardaş, bir də o...
Quruyub daşa dönür
Dayandığı yerdə o...

...qara yellər,
Ağ yellər, qara yellər.
Boz duman qovlamaqdan
Gəlib zinhara yellər.

Zaman - 92...
Seysulan...
Dərdə dirsəklənən kənd...
Ermənilik bu səmtə
Kəmənd atıbdı, kəmənd...

Neçə güllə soyudub
hər dağ, hər qaya, hər daş...
Neçə aylardan bəri
Bir ayrı sevgi ilə
İsindirir səngəri
bir ata, iki qardaş...

...İki səs
Qanadları qırılmış
ümidsiz ötərgi səs
Oğullardan birini
çıxardır səngərindən.
Yarasından qan damır
yaralı səngərin də...

Sağda - yaralı ata,
Solda - yaralı qardaş...
"Ay oğul!.." - qırılır səs,
"A qardaş!.." - yavaş-yavaş
daşlara çırpılır səs...

Səsin biri sağa çəkir,
Sola çəkir səsin biri.
İki səsin arasında
necə bölsün bir ömürü?!..
...Elə bil Yer kürəsi
oynayır dayağından.
Bir addım sola tərəf -
"O-ğul, o-ğul..." harayı
yapışır ayağından.
Bir addım sağa tərəf -
"Qar-daş, qar-daş..." harayı
təngiyir nəfəs-nəfəs,
sonda bir daş harayı...
...Sinəsini tutaraq
diz çökür...
Bir anlığa
baxır sağa...
"A-ta..." deyir,
Baxır sola,
"Qar-daş..." deyir...
Nəfəs-nəfəs əyilir
üzüquylu torpağa...

Onda 92-ydi...
Bu ağrılar-acılar
Yaddaş silkələyirdi.
Olmalılar göyləri
Torpağa ələyirdi...

Onda 92-ydi...
İndi ayrı zamandı.
Vətən üçün döyüşlər
Ölümdən ölməzliyə
Bir möhlətdi, amandı...

Onda 92-ydi...
Aprel...
Ayın 2-si...
İşğalçının başına
güllələr ələnən gün...
Əli qana batanlar
qanına bələnən gün...

Düşmən gəlir...
Vətənə
Sinəsi səngər olan
Azərbaycan əsgəri
Çiyinində dikəldir
Sığındığı səngəri...

Düşmənin gözlərini
qamaşdırdı həmin gün
Qeyrət, hünər ləngəri.
Həmin gün
Azərbaycan əsgəri:

Tanrım verən ömür sənindi, Vətən,
Sinənə daş dəysə dağ-dağ olaram!
İrili-xırdalı yaralarına
Sarğı əvəzinə, yarpaq olaram!

Bayrağın bir daha göylərdən enməz,
Güvəndiyin əsgər
yolundan dönməz!
Kölgəndə yağılar kölgələnəmməz,
Sərhəd dirəyinə bayraq olaram!

Sənin yaran boyda dərdi-sərim var,
Yaran gizildəyir…
Qəm-qəhərim var...
Səndə qəbrim boyda
Torpaq yerim var,
Qanlı torpağına torpaq olaram! -

dedi...
Bir an içində
barmağı avtomatın
tətiyini isitdi...
"İrəli!" harayını
dağ da, daş da eşitdi...

Güllə, mərmi düşməni
Çıxardır səngərindən.
Sinəsini yandırır
Mərmilər səngərin də...

Düşmən görmürdümü ki,
Neçə illərdən bəri
Daş - dağın, dağ - ağacın,
Ağac - budağın, budaq - yarpağın,
Yarpaq - bulağın, bulaq - yarağın,
Yaraq ocağın, ocaq - torpağın
keşiyindədi...

Düşmən gərək biləydi ki,
Daş səngərin daş sinəsi
"Vətən!" - deyir,
Anaların quş yuxusu,
Nənələrin zümzüməsi
"Vətən!" - deyir,
Neçə yurdun ocaq daşı,
"Vətən!" - deyir,
Şəhidlərin son döyüşü,
Son savaşı "Vətən!" - deyir!...

"Vətən!" - deyir qayaların
Yaxasından tutan cığır,
Gəlmələrin izlərini
Çiyinindən atan cığır...

Düşmən gərək biləydi ki,
Ermənilik ilan kimi
Dağda-daşda sürünsə də,
Yesirliyə bağır basıb
Yad kürkünə bürünsə də,
Yurd olammaz bu torpaqda!
Yurd olammaz bu torpağa!..

Qələbə!
Seysulan qucaq açıbdı
Qalib yerişiylə gələn əsgərə.
İşğalın gözünü ovcuna töküb,
İşğal niyyətinə gülən əsgərə.

Qanadı gərilir burda qeyrətin,
Gözləri səyriyir yenə heyrətin...
Qara yapıncılı qara niyyətin
İzini biryolluq silən əsgərə.

Belə uğurlayıb gələn səhəri,
Yuyub, durulayıb qəmi-qəhəri...
Göyün göylüyünü illərdən bəri
Sıxan sıxılcımı bölən əsgərə.

Qeyrət bir qədərə büründüyündən
Tanrı güc veribdi haqqın səsinə.
İnam sevgi kimi göründüyündən
Qeyrət haray salıb Yer kürəsinə...

"Gəldinizmi?" - Seysulanda
dağ dillənir, daş dillənir,
Anaların gözlərində yaş dillənir,
Çəmən dinir, bulaq dinir,
Yarpaq-yarpaq əl eləyən
budaq dinir:
"Gəldinizmi?"

Bu sevincin işığına
Əl uzadıb
göydə günün işığı da.
Bu işığın qürur payı
Bir "Cəngi"yə kökləyibdi
Qocanı da, ahılı da, uşağı da!..
İllər ilə istəyirdik
Bir qələbə sorağından qəlb isinə...
Bu da arzu!
Bu da muraz!
Bu da niyyət!
Və nəhayət,
Seysulana baxır hamı,
Seysulana - günümüzün Kəbəsinə!
Seysulanda dostun-yadın
heyrətidi Bayrağımız!
Bu sevinci Laçına, Kəlbəcərə,
Ağdama, Füzuliyə, Qubadlıya,
Cəbrayıla, Zəngilna ad edəcək,
Azərbaycan əsgərinin
qeyrətidi bayrağımız!..

**Rəşid FAXRALI**
**"Azərbaycan Ordusu"**

*5 aprel, 2016-cı il*



# Əsgər həyatında qürur günü

***Bu günlərdə "N" hərbi hissəsində əsgəri xidmətini başa vuran hərbi qulluqçuların təntənəli yolasalma mərasimi keçirildi.***

Sıra meydanında keçirilən tədbir ümummilli liderimiz Heydər Əliyevin və Vətənimizin azadlığı uğrunda şəhid olanların xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlandı. Dövlət himni səsləndirildi.

Sonra Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun müddətli həqiqi hərbi xidmətə çağırılan, həmçinin ehtiyata buraxılan hərbi qulluqçulara müraciəti oxundu.

Tədbirdə çıxış edən polkovnik Qədir Nəsibov əsgərlik həyatını şərəflə başa vuran gənclərin sevincinə şərik olaraq onları təbrik etdi. Bildirdi ki, Azərbaycan gəncliyinin qarşısında duran ən vacib vəzifələrdən biri məhz orduda xidmət etmək, Vətən qarşısında borcunu alnıaçıq, üzüağ yerinə yetirməkdir. "Ordu həyatı gənclərimizin formalaşmasında, milli özünüdərkində və təfəkkürünün inkişafında böyük rol oynayır. Siz əsgəri xidmət dövründə ordunun özünəməxsus qayda-qanunlarını dərindən mənimsəyərək, Vətəni qorumağın sirlərinə yiyələndiniz. Ölkəmizin 20 faiz ərazisi işğaldan azad olunmayınca, müharibə qaçılmazdır. Bu gün ehtiyata buraxılmağınıza baxmayaraq, hər an Ali Baş Komandanın əmri ilə torpaqlarımızın azad edilməsi uğrunda mübarizəyə hazır olmalısınız. Mən inanıram ki, o tarixi gün uzaqda deyil və özünü azərbaycanlı adlandıran hər kəs bu cağırışa qoşulacaq."

Əsgər Bəhriz Əliyev çıxış edərək müddətli həqiqi hərbi xidmətini müvəffəqiyyətlə bitirməsindən hədsiz sevinc və qürur hissi keçirdiyini dilə gətirdi. "Qürurluyuq ona görə ki, xidmət müddətində komandirlərimizin bizə öyrətdiyi nəzəri və praktiki bilikləri yaxşı mənimsəmişik. Ordu həyatı bizi bir döyüşçü kimi hazırlamağla yanaşı, həm də bizə müstəqil həyatın sirlərini aşıladı". O, əsgər yoldaşları adından hər an müharibəyə hazır olan bir döyüşçü kimi yetişmələrində zəhməti olan zabitlərə dərin minnətdarlığını bildirdi.

Əsgər Sənan Qarayev də yoldaşının sözlərinə şərik olduğunu bildirərək bu gün xidmətlərini başa vurub valideynlərinin yanına alnıaçıq qayıtmalarından şərəf duyduğunu bildirdi. O da yoldaşları kimi hər an işğal altındakı torpaqlarımızı azad etməyə, şəhidlərimizin qisasını almağa hazır olduğunu qeyd etdi. "Gələcək həyatımda da Vətənimə layiq övlad olacağıma söz verirəm."

Hərbi hissə komandirinin şəxsi heyətlə iş üzrə müavini polkovnik-leytenant Əbülfət Xəlilov tərxis olunan əsgərlərə döyüş və ictimai siyasi hazırlıqlarına, hərbi intizamda əldə etdikləri nailiyyətlərə görə fəxri fərman və valideynlərinə təşəkkür məktubu təqdim edərək hər birinə uğurlar arzuladı.

Yolasalınma mərasimi orkestrin sədaları altında başa çatdı.

**Leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Rəşid HÜSEYNOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 153
Nüsxə 4700